# ÇOX AZ TANIDIĞIMIZ RZAQULU VƏ NƏCƏFQULU NƏCƏFOVLAR



*Cəlal QASIMOV,*
*filologiya elmləri doktoru,*
*professor*

Görkəmli alim Əziz Şərifin "Keçmiş günlərdən" kitabında oxuyuruq: "1927-ci ildə atamın vəfatından on il keçirdi. O zaman məsul vəzifələr daşıyan və uzun müddət "Yeni fikir" qəzetinin baş redaktoru olan Rzaqulu Nəcəfov vaxtilə yaxşı tanıdığı, dərin hörmət bəslədiyi, ictimai xidmətlərini yüksək qiymətləndirdiyi Qurbanəli Şərifzadəni yada salıb ona "Hüznlü bir xatirə" başlıqlı məqalə həsr etmişdi. Böyük qardaşı, görkəmli şair Əliqulu Qəmküsar, İran inqilabının iştirakçılarından olan əmisi oğlu Nəcəfqulu Nəcəfov və Naxçıvanın açıq fikirli ziyalı gəncləri kimi, Rzaqulu da Naxçıvan mühitində böyümüş, ərsəyə çatmış və Q.Şərifzadənin təsiri ilə ictimai fəaliyyətə başlamışdır..." (Əziz Şərif. "Keçmiş günlərdən", Bakı, 1983).

"Dan ulduzu" jurnalında nəşr edilən (R.Nəcəfov. "Hüzünlü bir xatirə", "Dan ulduzu" jurnalı, 1927, №12) bu yazıdan az keçməmiş Rzaqulu Nəcəfova qarşı kampaniya başlanır. Məsələ o dərəcədə böyüyür ki, onun həbsi gündəmə gəlir. Cəlil Məmmədquluzadənin müdaxiləsindən sonra R.Nəcəfova qarşı hazırlanan kampaniyaya demək olar ki, son qoyulur.

Əziz Şərif kimi tanınmış bir ziyalının diqqətini çəkən Rzaqulu Nəcəfov kim idi? Rzaqulu Nəcəfov "Mozalan", "Bir müsəlman", "Lağlağı", "N.R.", "R.Nəcəfzadə" və s. gizli imzalarla "Bürhani-tərəqqi", "Həqiqət", "Molla Nəsrəddin", "Maarif işçisi", "Dan yıldızı", "Yeni fikir", "Yeni Gəncə" mətbu orqanlarında maraqlı ədəbi-publisist yazılarla çıxış edən, lakin indiyə qədər az öyrənilən ziyalı idi. Bundan başqa o, Azərbaycan Xalq Cümhuriyyətinin Tiflisdəki konsulu, Azərbaycanın ictimai hıyatında, mətbuat və ədəbiyyat tarixində özünəməxsus yeri olan, Birinci Türkoloji Qurultaya Naxçıvandan qatılan nümayəndə, daha doğrusu, tərcümeyi-halı düşünülmüş surətdə unutdurulan Azərbaycan ziyalısı.

Rzaqulu Məşədi Ələkbər oğlu Nəcəfov 1885-ci ildə Naxçıvan şəhərində anadan olub. Onun atası Məşədi Ələkbər Hacı Nəcəf oğlu az bir zamanda Culfanın məşhur tacirlərindən biri olur. Ələkbər Nəcəfovun həyat yoldaşı Bilqeyis xanım naxçıvanlı Şeyxovların qızı idi.

İbtidai təhsilini Naxçıvanda alan R.Nəcəfov təhsilini İrəvanda və Tiflisdə davam etdirmişdir. R.Nəcəfov atasının vəfatından sonra Naxçıvana gələrək Culfa gömrüyündə işə düzəlir. Mollanəsrəddin ədəbi məktəbinin nümayəndələrindən olan R.Nəcəfovun atası Ələkbər kişi Əliqulu Qəmküsar kimi bu oğlunun da təhsil almasına xüsusi fikir vermişdir. Rzaqulu da qardaşı kimi məktəbdarlıqla məşğul olmuş, tərcüməçilik etmiş, bir ədəbiyyat adamı və qəzetçi kimi yadda qalmışdır. O, 1912-ci ildə böyük qardaşı Əliqulu Qəmküsarın dəvəti ilə Tiflisə gedir və "Molla Nəsrəddin" jurnalında ona yardım edir. Qısa bir müddətdən sonra ikinci redaktor təyin edilir. Paralel olaraq Tiflisdə çıxan mətbuu mənbələrdə, xüsusilə də "Molla Nəsrəddin" jurnalında maraqlı yazılarla çıxış edir. Molla Nəsrəddin ədəbi məktəbindən böyük qəzetçilik təcrübəsi toplayan R.Nəcəfov sonralar "Yeni fikir" qəzetinin redaktoru və "Dan ulduzu" jurnalının baş redaktoru işləyir. Maarifpərvər ziyalı ərəb, fars dilləri ilə yanaşı, rus və gürcü dillərini də dərindən öyrənir.

Sovet hakimiyyəti illərində Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin üzvü olan Rzaqulu Nəcəfovun naxçıvanlı gənclərin Tiflisdə təhsil almalarında mühüm rol oynamışdır. Belə bir maarifpərvər ziyalı və ictimai xadim keçən əsrin 30-cu illərində başında Stalinin dayandığı totalitar rejimin qurbanı oldu. Rzaqulu Nəcəfovun həyatı və yaradıcılığı barədə geniş bilgiyə malik olmasaq da 2955 saylı cinayət işindəki sorğu anketindən əldə etdiyimiz tərcümeyi-hal materialları bu boşluğu qismən də olsa doldurur.

**Sorğu anketi**

Nəcəfov Rzaqulu Ələkbər oğlu
Az.SSR Naxçıvan şəh. Doğulduğu il, 1885.
Ünvanı: Bakı şəhəri, M.Qorki küçəsi.
1 sentyabr 1937-ci ildən Naxçıvan şəhərində yaşayır.
Peşəsi - Ədəbiyyat işçisi və müəllim.
1931-ci ilin yanvarına qədər Bakı şəhərində Din Tarixi muzeyində elmi işçi vəzifəsində işləmişdir.
Fərdi şəkildə tərcümə və müəllimliklə məşğul olmuşdur.
Təhsili: natamam ali.
Partiyalılığı: İnqilabçı. 1920-1929-cu illərdə ÜK(b)P üzvü olub.
1929-cu ildə partiya sıralarından xaric edilib.
Milliyəti: azərbaycanlı.
Vətəndaşlığı: SSRİ vətəndaşı.
1931-ci ildə xarici Konsulluqla əlaqə saxlamaqda təqsirli bilindiyinə görə həbs olunub və üç il müddətinə azadlıqdan məhrum edilib. Sürgündən qayıtdıqdan sonra, Bakı şəhərindəki Din Tarixi müzeyində işə düzəlib. 1937-ci ilin yanvar ayında işdən xaric edilib. O vaxtdan etibarən heç bir sahədə çalışmayıb.
Ailə vəziyyəti : Oğlu - Urxan (bəzi mənbələrdə Orxan yazılıb - C.Q.);
Oğlu - Akif. Həyat yoldaşı Nəcəfova Bilqeyis 37 yaş.
Sorğu anketini hazırladı Naxçıvan XDİK-in rəis müavini dövlət təhlükəsizlik baş leytenantı Vakulçik (DTX-nin arxivi. Rzaqulu və Nəcəfqulu Nəcəfovların istintaq qovluğu, PR №22897).

Təccüb doğuran odur ki, biz Azərbaycan ziyalılarının tərcümeyi-halını istintaq qovluqlarından, vakulçiklərin, şeirlərin, muradyanların, qriqoryanların, markaryanların, avetikyanların, təhməzyanların, seyranyanların və digər yanların təqdimatından öyrənirik. Ona görə də, bu bioqrafik göstəricilər ziyalı tərcümeyi-halından daha çox məhbus tərcümeyi-halına oxşayır.

> ***Çox hörmətli Əli Rza müəllim!***
> ***"Kredo" qəzetinin 4 dekabr 1919-cu il tarixli sayında Nəcəfovlarla bağlı məqalə ilə tanış olduqdan sonra qərara gəldim ki, olduqca az öyrənilən bu tarixi şəxslərlə bağlı arxiv materialları əsasında hazırladığım məqaləmi sizə göndərirəm. Məqsədə uyğun hesab etsəniz oxucuların diqqətinə çatdırasınız.***
> **Hörmətlə, Cəlal Qasımov**

Yeri gəlmişkən onu da qeyd etməliyik ki, Bilqeyis xanım R.Nəcəfovun ikinci arvadıdır. İstintaq qovluğunda adları keçən oğlanları - Urxan və Akif birinci arvadı, gənc ikən dünyasını dəyişən Məsumə Fərəcullayevadan olan övladılarıdır. Onun ikinci həyat yoldaşı Bilqeyis xanım, Mir Rzaxan Talışinski ilə general Səməd bəy Mehmandarovun bacısı Məryəm xanım Mehmandarovun qızı, Azərbaycanın Əməkdar artisti, müğənni Cahan xanım Talışinskayanın böyük bacısı idi.

Naxçıvan XDİK-in əməkdaşı Vakulçikin bu təqdimatından sonra, 1937-ci il 27 sentyabrda Nəcəfqulu Nəcəfovun və Rzaqulu Nəcəfovun evində axtarış aparmış və onlar həbs edilmişdir. Axtarış zamanı onlardan müxtəlif sənədlər, 27 kitab və İrandan gələn bir məktub götürülmüşdür.

Yuxarıdakı məlumatlardan da aydın görünür ki, Rzaqulu Nəcəfovun həbsinə səbəb olan səbəblərdən biri onun Heydər Vəzirov və Nəcəfqulu Nəcəfovla əlaqə saxlamasında idi. Maraqlıdır ki, həcmcə olduqca kiçik olan PR-22897 nömrəli istintaq qovluğunda Rzaqulu və Nəcəfqulu Nəcəfovların hər ikisi eyni cinayətdə ittiham olunur. Ona görə də, biz hər iki müttəhimin ittiham olunmalarının səbəblərini oxuculara çatdırmağa çalışacayıq.

Nəcəfovlara məxsus istintaq qovluğunda axtarış zamanı Rzaqulunun üzərindən götürülmüş bir dəftər əlyazma da olmuşdur. Həmin əlyazmadan bəziləri istintaq üçün əhəmiyyət daşıdığından onlar 06 oktyabr 1937-ci ildə Əsgərov soyadlı bir şəxs tərəfindən tərcümə edilən şeir nümunələridir. İstintaq qovluğunda "əski əlifba ilə yazılmış əksinqilabi şüarlar" (qovluqda əski əlifba ilə yazılmış heç nə yoxdu. Orada yalnız rus dilinə tərcümə olunmuş bir neçə kiçik qeyd var - C.Q.) adlandırılan bu nümunələrin tərcüməsini oxuculara təqdim edirik.

* * *

1. Get soruş və öyrən kim onları seçib.
Onların hər biri zor gücünə seçilib.
Hər biri ayda üç min alacaq.
İlahi, dəhşətdən qoru, İlahi, qoru
2. Minlərlə imansız var ki, indi milyonlar yeyir,
Bir müddər lüt dolaşdığı halda indi xəz geyir,
Bülbülün yerində indi qarğalar əyləşir.
İlahi, dəhşətdən qoru, İlahi, qoru
3. Əgər bizdə qəhrəman yoxsa kimdir müqəssir,
Bu millətdən sonda iz də qalmayacaq
İlahi, dəhşətdən qoru, İlahi, qoru
4. Şəhərdə bir damcı su yoxdur, şəhər susuz qalır
Şəhərdə un yoxdur, təmiz çörək bişirmirlər,
Kim deyə bilər ki, oğurlamırlar,
Kim deyə bilər ki, ac qalanda dalaşmırlar, dişləmirlər,
Kasıblar ağa sayılmırlar.
5. Bütün işlər dəlilərə tapşırılıb,
İdarəçilik vəzifəsinə axmaqlar gəlib,
Belə işlər həmişə düşmənçilik yaradır,
Xalq hələ anlamır (DTX-nin arxivi. Rzaqulu və Nəcəfqulu Nəcəfovların istintaq qovluğu, PR №22897).

"Əski əlifba ilə yazılmış əksinqilabi şüarlar" adlandırılan bu nümunələrə Rzaqulu Nəcəfov ilk dindirməsi zamanı (04 sentyabr 1937-ci ildə) belə aydınlıq gətirirdi.

**Sual:** - İstintaqa sizin xarici dövlət nümayəndələri ilə münasibətlərinizin xarakteri barədə məlumat verin.

**Cavab:** - 1934-cü ildə mən Kərbəla Qafar ağa Məmmədtağı bəy oğlu Səfərəlibəyovla münasibətim olub. Naxçıvan şəhərinə gələndə adını çəkdiyim şəxs məni qonaq çağırdı. Mənimlə birgə qonaqlıqda Naxçıvan şəhər sakini Şeyx Kərim Hacı Molla Tağı oğlu Qədirzadə, Əmim oğlu Nəcəfqulu Nəcəfov da var idi. Bu 1934-cü ilin avqust ayı idi. Kərbəla Qafar ağa Məmmədtağı bəy oğlu Səfərəlibəyovla mən bir daha 1936-cı ilin avqust ayında Naxçıvanda Balaca bağın yanında görüşdüm.

**Sual:** - Sizin tərəfinizdən yazılmış əlyazmalarda Sovet rəhbərlərinin ünvanına bir sıra rəylər (fikirlər) qeyd olunub. Sizə təqdim etdiyimiz bu əlyazmalara açıqlama gətirin.

Məsələn: Minlərlə imansız var ki, indi milyonlar yeyir,
Bir müddər lüt dolaşdığı halda indi xəz geyir,
Bülbülün yerində indi qarğalar əyləşir.
Bunu izah edin.

**Cavab: -** Məncə, bu yazılar musavat dövründə yazılan əksinqilabi şüarlar deyil, əlavə edirəm ki, bunlar 1919-cu ildə dünyasını dəyişmiş qardaşım Əliqulu Nəcəfova məxsusdur.

**Sual:** - İstintaqa məlumdur ki, siz mütəmadi olaraq xalq düşmənləri ilə görüşmüsünüz. Aydınlıq gətirin.

**Cavab:** - Mən heç kəslə əlaqə yaratmamışam, Səfərəlibəyovla dost münasibətim olub və görüşlərim barədə məlumat verdim. İmza. R.Nəcəfov.

Nəcəfov Rzaqulu 8 sentyabr 1937-ci ildə ikinci dindirməsi zamanı müstəntiqin suallarını belə cavablandırmışdır.

**Sual:** - Sürgündən qayıtdıqdan sonra xarici dövlət nümayəndələri ilə münasibətlərinizin xarakteri barədə məlumat verin.

**Cavab:** - Sürgündən 1934-cü ildə iyun ayında qayıtdım və Naxçıvana gəldim. Gələn kimi evdə İran konsulluğunun əməkdaşı Kərbəlayı Qafar ağa Məmmədtağı bəy oğlu Səfərəlibəyovla görüşdüm. Sonra o məni evinə nahara dəvət etdi. Mən oraya Nəcəfov Nəcəfqulu Məmmədhüseyn oğlu ilə getdim. Biz orda iki saat olduqdan sonra dağılışdıq. İmza Nəcəfov (Qeyd. Gətirilən sitatlar Rzaqulu və Nəcəfqulu Nəcəfovların PR № 22897 saylı istintaq qovliğundan götürülmüşdür).

Rzaqulu və Nəcəfqulu Nəcəfovların istintaq qovliğunda R.Nəcəfova məxsus belə bir qeyd də vardır. "Mənim doğma qaraşım Nəcəfov Cəfərqulu mənimlə əsir düşərgəsində olub və 1934-cü ildə vəfat edib. 1932-ci ildə israfçılığa görə həbs olunmuşdu".

*(Davamı var)*